# Musa ƏLƏKBƏRLİ - 65



■ Musa ƏLƏKBƏRLİ

### ALLAHA XİTAB

Ən bəxtəvər çağımda,
ən ağır anımda da
Yanımdasan Allahım,
ruhumda, varlığımda,
canımdasan, Allahım.
Varlığını sübuta
nə ehtiyac, nə hacət?
Yerə, göyə əyandı
bizə olan məhəbbət!
Sənin ay baxışın var,
sənin gün nəzərin var.
Yeri, göyü yaratdın –
bu boyda əsərin var!

Yer Kürəmiz zərrədir
sonsuz qalaktikada.
Adını çağıran tək
dərhal yetirsən dada.
Göndərdiyin mələyin
dediyini yazıram
mən tələsik, höləki...
Sirrinə əl aparan
doğulmayıb hələ ki!..

Min illərdir dərkinə
yetmir insanlıq, yetmir.
Səmavi kitabları,
124000 peyğəmbər

Çəkdiyi əzabları
zaman-zaman unudur,
yaddan çıxarırıq biz.
Doğru yolu azırıq,
günaha varırıq biz.
Acgözlük, dünyagirlik,
şöhrət, qarın davası.
Bax beləcə pozulur
bu dünyanın havası.
Min illərdir azdırır
bizi şeytan mələyin.
Quluna çevrilirik
min qurğunun, kələyin.
Min illərdir kəsmirik
fələkətin önünü.
Qiyamətlər görsək də,
ancaq yada salmırıq
o qiyamət gününü!
Bilmirik ki, biz sənə
ruhumuzla fədayıq.
Bu tamah aləmində
anlaya bilmirik ki
biz hansı dünyadayıq?!

Sən mənim ən duyğulu
anımdasan, Allahım.
Əlin var kürəyimdə,
gücün var biləyimdə,
Arzumda, diləyimdə,
bu çağlar ürəyimdə,
qanımdasan, Allahım!
Yer Kürəmiz zərrədir
sonsuz qalaktikada.
Ey qurbanı olduğum,
bu nə ilahi sirdir
adını çağıran tək
dərhal yetirsən dada!

* * *

Baba möcüzəymiş nəvə yanında,
Necə xoşbəxt olur, danışır-gülür.
O həyat eşqini bəlkə canında
Dünyaya nəvəsi gələndə bilir.

Ruslanım, göyləri bəxş etdin mənə,
Demə, daha baban yerdə yaşayır.
Gəlinlik dövrünə qayıdır nənən,
Analıq hissini bir də yaşayır.

İstəyi nə yaman aşıb-daşırmış,
Dünyanı təzədən verələr ona.
İnsan qocalanda uşaqlaşırmış,
Canlı oyuncaqmış nəvələr ona.

### MƏNƏ BU SEVGİNİ ÇOX GÖRMƏ, ALLAH

Anamın südüylə içmişəm onu,
Atamın gözüylə seçmişəm onu.
Ömür yolum kimi keçmişəm onu,
Mənə bu sevgini çox görmə, Allah!

Ağıla yetməsin mənim tək dəli,
Arasın göylərdən enən gözəli.
Ulu dərgahına yetişsin əli,
Mənə bu sevgini çox görmə, Allah!

O gələn yolları bağla demişdim,
Axı, bunu hansı haqla demişdim?!
Məni bu sevgidən saxla demişdim,
Mənə bu sevgini çox görmə, Allah!

Öz uca hökmündə qal, qurban olum,
Salma ürəyimə xal, qurban olum.
Nəyimi alırsan, al, qurban olum,
Mənə bu sevgini çox görmə, Allah!

Ağlasın dumanım, çənim dünyada,
Cücərsin, boy atsın dənim dünyada.
Onsuz nə işim var mənim dünyada?!
Mənə bu sevgini çox görmə, Allah!
Mənə bu sevgini çox görmə, Allah!

### SƏYYARƏ SƏYYAFA

*"Könül dünyamız" verilişini dinləyərkən*

Bu qız şeirə, sözə necə yaxındır,
Gör necə doğmadır zərif hisslərə
Qəlbində ümmanlar axın-axındır,
Özəl duyğulara, qərib hisslərə.

Yağ kimi yayılır iliyə, qana,
Sözü gözəllikdən güc alır yoxsa?
Cansız bir daşı da gətirir cana,
Göydə mələklərdən öc alır yoxsa?

Ritmikdir, oynaqdır səsinin ladı,
Şerinə güzgüdür üz ifadəsi.
Söhbətinin duzu, sözünün dadı –
Hər sözün, kəlmənin düz ifadəsi.

Duyanlara çatar duyğusal olmaq,
İstedad töhfədir, qismətdir şəksiz.
Tufanlı dənizdə üzən sal olmaq
Kim buna can atar hissiz, ürəksiz.

"Könül dünyamız"a baxıram yenə,
Düşüb ovsununa sehirli səsin.
Mənim tək dinsizlər gələcək dinə,
Təki bu şirinlik gözə gəlməsin,
Təki bu gözəllik gözdən düşməsin!

Musiqidə söz var, sözdə musiqi,
Müğənni kükrəsin, şair çağlasın.
Ürəkdə, könüldə, gözdə musiqi,
Dilindən dürr daşır, necə saxlasın?!

Məqamında susur, yerində dinir,
Sapa inci düzür, Allah saxlamış.
Sözlərin ən dərin qatına enir,
Bizi tamam üzür, Allah saxlamış.

Ulduzlu səmadan söz dərib onu,
Görüb səbri çatmaz göydə qalmağa.
Tanrı özü qəsdən göndərib onu
Şair dediyindən "qisas" almağa!

### DEYİR

Bir ülkər doğulub könül səmamda
Nur saçır qocalma, cavanlaş deyir.
Sən mənim eşqimlə dərələr keçib,
Üfüqlər adlayıb, dağlar aş deyir.

Bu sevgi deyilən ayrı bəladı,
Sənin ac gözlərin gözlər yaladı...
Yüz dəfə könlündə ocaq qaladın,
Tapmadın könlünə bir sirdaş deyir.

Çox müşkül işləri çözüb, yaşadın,
Əsil ürək dostu gəzib, yaşadın.
Elə bir bəlaya dözüb yaşadın
Heç buna dözməzdi, vallah, daş deyir.

Görüşlər, vidalar tamam şərtidi,
Sevgilər tanrının yaşam şərtidi.
Dərdin ömür boyu Novruz dərdidi,
Ayrı dərdinmi var ondan baş deyir?!

Həsrətin dizini qıraq, olmasın,
Niyə yanar qəlbin çıraq olmasın?!
Gözəllik gözündən iraq olmasın,
Ona misra-misra yaxınlaş deyir.

O şimşək baxışlar tərpətsə yeri,
Yanıb kül olarsan dayanma, yeri.
On səkkiz yaşını qaytarma geri,
Səni tamam üzər bu tələş, deyir.

Düşmüsən qoynuna yanar közlərin,
Qəlbin ümmanıdır inci sözlərin,
Ay Musa, od-alov saçır gözlərin,
Heç gözə görünmür ötən yaş deyir?!

* * *

***Bacım oğlu Fazilin vaxtsız ölümünə həsr olunmuş iki şeir***

Dərddən bir sökülməz qala qoyursan,
Sinəmizdə yarğan-çala qoyursan.
İki gözüyaşlı bala qoyursan,
Bəlalar çəkəcək anan neyləsin?!

Bu zalım dünyaya gəldin gəlmədin
Qaçhaqaçda oldun, dinclik bilmədin.
Eynin açılmadı, üzün gülmədi,
Oduna ömürlük yanan neyləsin?!

Ay mənim bacımın ciyərparası,
Gedərmi ürəkdən övlad yarası.
Daha yerlə göyün bitdi arası,
Adını dua tək anan neyləsin?!

Köçdüyün axşamı Fəridnən Günel,
Sızlatdı, göynətdi qəlbimi tel-tel.
Bölüşdü bu dərdi bir oba, bir el,
Səni ürək odu sanan neyləsin?!

Heç zaman çəkilməz dumanın, çənin,
Dolan bir buluddu həsrətin sənin.
Ətəyi əlində iki körpənin
Gözüyaşlı qalan sonan neyləsin?!

### TAPŞIRDIQ

Sinəmizin bu dağını
Aparıb dağa tapşırdıq,
Atamın ilk nəvəsini
Qara torpağa tapşırdıq.

Biz yaşadıq bu nisgili,
Ötdük bəmi, keçdik zili.
Ağ gün soraqlı Fazili
Beş arşın ağa tapşırdıq.

Od götürdü Xəzəngülü,
Sındı şaxı, soldu gülü.
O ocaqda qalan külü
Biz sola, sağa tapşırdıq.

Mətanətin mətanəti
Sınağa çəkildi qəti.
Başsız qalan o xilqəti
İki uşağa tapşırdıq.

Seçib yükün ağırını,
Musa da yardı bağrını.
Kötükdən gələn ağrını
Körpə budağa tapşırdıq.

*13 dekabr 2013*



### ƏN QORXULU DÜŞMƏN

Küt kündənə sevinər,
Pisləyər təndirini.
Kəsər o namərd oğlu
Süfrəndə çörəyini,
Arxada kəndirini!

### A MAHMUD DAYI

*Ustad aşığımız Mahmud Məmmədovun 80 illiyinə*

Bu səs ilahidən gələn töhfədir,
Yaşın bu çağında, a Mahmud dayı.
Sənin bar gətirən öz ağacın var
Söz-sənət bağında, a Mahmud dayı.

O səs bir gözəlin can üzən nazı,
Qoruyub əzizlə gəl bu avazı.
Ömrün qışına da saxla bu yazı
Bir gül budağında, a Mahmud dayı.

Eşq olsun səndəki eşqə, həvəsə!
Lap "mənəm" deyənlə girərsən bəhsə.
Ustadsan, şəyirdlər versin səs-səsə
Solunda, sağında, a Mahmud dayı.

Açmısan çox sirri, sehri sazınla,
Tapmısan istəyi, mehri sazınla.
Qol-boyun olduqca Leyli sazınla
Sən Məcnun dağında, a Mahmud dayı.

Çox dərin kəlmədir ustad kəlməsi,
Bəxtin səksəndə də üzə gülməsi.
Söz demək Musaya asan gəlməsin
Ustad qabağında, a Mahmud dayı!

***

Hasarlar içində doğulub bu ev,
Arxası hasardır, önü hasardır.
Hasarlar içində boğulur bu ev,
Haraya üz tutsa yönü hasardır.

Bu ev nigarandı boy-buxunundan,
Nədənsə gözlərdən yayınır bu ev.
Bir mənzil uzaqdır ən yaxınından,
Ox atıb gizləyir yayını bu ev.

Quş da səkə bilməz həndəvərində,
Bu ev qıfıllıdır dörd bir yanından.
İllərdir uyuyur dərdi dərində
Bu evin qorxusu çıxmır canından.

Hər şeydən bezikib, hər şeydən dönüb
O, çətin eşidər ahı, amanı.
Onun hər tağında ömürlər sönüb,
Onun hər daşına üzlər yamanıb.

Hasarlar içində doğulub bu ev,
Arxası hasardır, önü hasardır.
Hasarlar içində boğulur bu ev,
Haraya üz tutsa yönü hasardır.

### ETİRAF

Ayları, illəri yuxuya verdim,
Ömrümü bir qara qorxuya verdim.
Səksəkə içində canı əritdim,
Dumduru qanıma şəkər yeritdim.

Həqiqət göynədi dilim ucunda,
Çox bəlalar çəkdim dilim ucundan.
Bütöv həqiqətdən xəbərsiz oldum,
Yarımhəqiqəti demək anında
Üzümə dirənən şeytan yanında,
Cəsarətsiz oldum, təpərsiz oldum.

Şair olan gərək qorxu bilməsin,
Sözü ötkəm olsun, başı dik olsun.
Gündüz dinclik,
gecə yuxu bilməsin,
Gəzsin kəndir üstdə lunatik olsun.

Şair şir ürəyi yeyən adamdı,
Zülmü zülümkara deyən adamdı.
Nahaqqı gülləyə tutan adamdı,
Döyüşdə haqqını udan adamdı.

Sözün meydanında qarma-qarışıq,
İt-bat olmaqdadı oxucu zövqü.
Qaranlıq gecəyə salmır bir işıq
Şairin ürəyi, ilhamın şövqü.

Səni bu üsyana kim köklədisə
Ağsaçlı ana tək saçını yolur.
Şairin öz ömrü nə kökdədisə
Onun şeiri, sözü o kökdə olur.

Haqsızlıq əsrimi yandırır, yaxır,
Götürən tapılmır bu ağır daşı.
Zamanın çayları bulanıq axır,
Şairlər üzmürsə axara qarşı!